**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№382/3** **21 noyabr 2025-ci il**

**Auditorlar Palatasının 2025-ci il üzrə maliyyə hesabatlarının auditinin aparılması barədə**

Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 12.6-cı “Auditorlar Palatasının maliyyə hesabatlarının auditinin aparılması üçün auditorun seçilməsi” bəndinin icrasını təmin etmək məqsədilə Maliyyə və texniki təminat idarəsinin rəisi vəzifəsini icra edən Q.Əhmədov tərəfindən Auditorlar Palatasının 2025-ci il üzrə maliyyə hesabatlarının auditinin aparılması üçün “BKR Consulting” MMC-nin namizədliyinə dair məlumatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının 2025-ci il üzrə maliyyə hesabatlarının auditinin “BKR Consulting” MMC tərəfindən aparılması məqsədəmüvafiq hesab edilsin.

2. Maliyyə və texniki təminat idarəsinə (Q.Əhmədov) tapşırılsın ki:

2.1. 2026-cı ilin fevral ayı ərzində Audirorlar Palatasının 2025-ci il üzrə maliyyə hesabatlarının İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına (IPSAS) uyğun olaraq hazırlanması təmin edilsin;

2.2. Auditorlar Palatasının 2025-ci il üzrə maliyyə hesabatlarının auditinin İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına (IPSAS) uyğun olaraq aparılması üçün 2025-ci il 05 yanvar tarixindən etibarən “BKR Consulting” MMC ilə müqavilənin bağlanılması təmin edilsin.

3. “BKR Consulting” MMC-nin direktoru – auditor Elçin Əliyevə tapşırılsın ki, 2026-cı ilin mart ayında Auditorlar Palatasının 2025-ci il üzrə maliyyə hesabatlarının auditinin aparılmasını təmin etsin və nəticəsinə dair müstəqil auditorun hesabatını Palatanın rəhbərliyinə təqdim etsin.

4. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**